**Murad Elçin oğlu ƏSƏDOV**
Bakı Dövlət Universitetinin Diplomatiya və müasir inteqrasiya kafedrasının dissertantı
ORCID adres:0000-0003-1528-2533
**E-mail:** muradasadov@bsu.edu.az

# "YENİ BÖYÜK OYUN" UN MÜNAQİŞƏ VƏ ƏMƏKDAŞLIQ BÖLGƏSİ GÜRCÜSTAN: TÜRKİYƏ VƏ RUSİYA RƏQABƏTİNDƏ

**Xülasə:** Gürcüstanın beynəlxalq münasibətlər gündəminə daxil olması, müxtəlif aspektlərdən qiymətləndirilə bilər. Gürcüstanın hazırkı vəziyyətini düzgün başa düşmək üçün ilk növbədə, onun geosiyasətinə, geomədəniyyətinə və geoiqtisadiyyatına dair məlumatları qiymətləndirmək lazımdır. Bu araşdırmada XXI əsrin əvvəllərində Cənubi Qafqaz bölgəsindəki siyasi vəziyyət, region dövlətlərinin ikili və çox saylı müstəvidə inteqrasiya prosesi və bu prosesin həyata keçirilməsi üçün zəruri olan şərtlərin hərtərəfli perspektivləri, böyük dövlətlər arasında gedən "Yeni Böyük Oyun" da bölgənin yeri və önəmi təhlil edilmişdir. Məqalədə, həmçinin Cənubi Qafqazdakı çətin məsələlər, perspektivli potensial qarşısında Türkiyə-Rusiya rəqabəti və bu rəqabətin onların regional siyasətindəki yeri və əhəmiyyəti araşdırılır. Türkiyə və Rusiyanın regional siyasətində Azərbaycan-Ermənistan müharibəsinin nəticələri təhlil edilir. Məqalədə qlobal faktorlarla yanaşı, region ölkələri arasındakı ciddi rəqabət regionun dinamikasını və inkişafını izah etmək məqsədi daşıyır.
**Açar sözlər:** Cənubi Qafqaz, Türkiyə, Gürcüstan, "Yeni böyük oyun", geosiyasət

**UOT:** 32
**DOİ:** 10.54414/lysa9127

## Giriş

XX əsrin 90–cı illərin xüsusiyyətlərindən biri beynəlxalq münasibətlərin dövlətlər səviyyəsində reallaşması və güc siyasətinin bu münasibətlərə təsirli olmasına davam etməsi idi. Ənənəvi realist yanaşmaya əsasən suveren dövlətlər beynəlxalq münasibətlərin mərkəzində əsas aktyorlar kimi qəbul edilirlər. Realist yanaşma baxımından beynəlxalq siyasətdə əsas vahid kimi qəbul edilən dövlətlər eqoistliklə öz maraqlarını güdürlər və bu hədəflərə çatmaq üçün istifadə etdikləri ən mühüm element maddi gücdür. Keçən əsrin 90-cı illərində Sİ-nın dağılması Cənubi Qafqaz regionu üçün dönüş nöqtəsi olmuşdu. Bu dövrdə dünyanın əsas diqqəti Xəzər dənizi hövzəsi neft və qaz ehtiyatlarının təhlükəsiz yollarla Avropa bazarlarına daşınması məsələsi üzərində idi. Bölgədə enerji resurlarının dünya bazarına nəqli məsələsində dövlətlər və transmilli şirkətlər böyük rəqabətə girmişdilər ki, bu rəqabətdə ən çox ziyan çəkən bölgə dövlətləri olmuşdular. Bölgədə geosiyasi maraqlarını reallaşdırmaq istəyən böyük dövlətlərin buradakı fəallıqlarının artması fonunda əmələ gələn yeni çalarların çıxdığını görünür ki, bu da bölgə dövlətlərinin xarici siyasəti ilə sıx əlaqədardır. Bu dönəmdə Qərb xüsusən ABŞ və Rusiya bölgədəki maraq rəqabətində fəallaşması nəticəsində bölgədə mürəkkəb və riskli bir mənzərə yaranmışdı. Xüsusən də bölgənin etnik tərkibinin müxtəlif olması da bu rəqabətdə mühüm rol oynayırdı. ABŞ-da 11 sentyabr 2001-ci il tarixində baş verən terror hadisəsi bölgədə yeni bir oyunun başlaması ilə nəticələndi ki, tarixən Cənubi Qafqazla əlaqəli olan Türkiyənin bu oyundan kənarda qalaraq seyrçi olması mümkün görünmürdü.

Türkiyə üçün Cənubi Qafqazda "Yeni Böyük Oyun" deyilən bir şeyi təhlil etsək regiondakı dövlətlər və böyük ölkələrin əməkdaşlıq imkanları neorealist prizmadan qiymətləndirmək lazımdır. Xəzər dənizi hövzəsində enerji qaynaqlarının Avropa bazarlarına daşınması uğrunda böyük dövlətlərin rəqabəti, Cənubi Qafqaz coğrafiyasında mövcudluğunu qorumağa çalışan üç müstəqil dövlət, xüsusi ilə də Gürcüstandakı qeyri-sabit bir mühit Türkiyənin həm bölgə dövlətləri, həm də bölgəyə qonşu olan Rusiya və İranla əməkdaşlıq etməsini zəruri edirdi. Lakin bəzi siyasi məsələlər vardır ki, tam mənasıyla ikili münasibətlərin inkişafında maneə yaradır. Bu da gələcəkdə bölgədə Türkiyənin bu dövlətlərlə əməkdaşlığının olması mümkün görünmürdü. Çünki Türkiyə regionda sülh və sabitlik tərəfdarı, bölgə dövlətlərinin iqtisadi inkişafına nail olmağa çalışdığı halda, Rusiya tarixdə qalan "imperiya" fikirləri ilə öz təcavüz-

karlıq siyasətini davam etdirməkdədir. Türkiyənin Cənubi Qafqaz bölgəsi ilə tarixi əlaqələri olmuşdur. Sİ-nın dağılmasından sonra Türkiyə, Cənubi Qafqaz bölgəsinə və oradan da Xəzər hövzəsi enerji resurlarının təhlükəsiz tranzit yollarla Avropa bazarlarına daşınmasına çalışırdı. Bu səbəbdən də Türkiyə bölgənin əsas aparıcı dövləti olan Azərbaycan və geostrateji və geosiyasi cəhətdən maraqlı olan Gürcüstanla əməkdaşlığını genişləndirməyə çalışmışdır. Ankara ilə Bakı arasında "bir millət iki dövlət" şüarı ilə əhatə olunmuş sıx siyasi qarşılıqlı əlaqələrin möhkəmlənməsinə xidmət edir.

**1. "Yeni Böyük Oyun" nun bir parçası kimi Gürcüstan.** "Avrasiya Balkanları" [15] adlanan Cənubi Qafqaz regionu dünyanın əsas tranzit ticarət yolu olan Xəzər və Qara dəniz arasında yerləşən geostrateji əhəmiyyətə malik bölgədir. Tarix boyu İngiltərə və Rusiyanın maraq mərkəzində olan bu ticarət bölgəsi Sİ– nın dağılması ilə üç bölgə dövləti ilə yanaşı beynəlxalq təşkilatlar və dövlətlərin maraq sahəsini çevrilmişdir. Strateji əhəmiyyətinə görə, bölgə tarix boyu böyük güclərin diqqətində olmuşdur. Soyuq müharibə zamanı gedən regional və beynəlxalq güc mübarizəsinin yaratdığı böhran Sİ– nın dağılmasına səbəb oldu. XX əsrin 80–ci illərin sonunda iqtisadi və siyasi problemlər yaşayan Moskva bölgədə itirdiyi güc rəqabətini yeni əsrin əvvəllərində yenidən gündəmə gətirdi. Hazırda Cənubi Qafqazda öz təsir mexanizmlərini möhkəmləndirməyə çalışan Rusiya bölgədəki dövlətlərin daxili problemlərindən istifadə edərək onların xarici siyasətini şəkillləndirə bilir. İkinci bir tərəfdən, bölgə dövlətləri özləri də lider olmaq uğrunda mübarizə aparırlar.

Soyuq müharibənin başa çatması ilə Cənubi Qafqaz bir anda regional və qlobal güc mübarizələrinin əsas sahələrindən birinə çevrilmişdir. Cənubi Qafqaz dövlətləri olan Azərbaycan, Gürcüstan və Ermənistan tarixin heç bir mərhələsində qlobal proseslərin iddialı oyunçuları olmamışdılar. Xüsusilə müasir beynəlxalq münasibətlər sisteminin formalaşdığı mərhələlərdə (əsasən 1-ci və 2-ci dünya müharibələrindən sonrakı mərhələlər) bir yandan Rusiyanın "iştahası", digər yandan isə regional və qlobal şəraitin bu "iştaha"nın qarşısını alacaq gücdə olmaması Cənubi Qafqaz respublikalarının hətta müstəqil dövlət kimi varlıqlarını davam etdirmələrinə belə imkan verməmişdir. Beləliklə Azərbaycan, Ermənistan və Gürcüstan müasir beynəlxalq münasibətlər sistemində sadəcə SSRİ-nin dağılması ilə öz yerlərini ala bilmişdir. Başqa bir tərəfdən Müstəqilliyin əslində nə olduğunu tam olaraq anlamağa imkan tapmadan onu qorumağa çalışan gənc dövlətlər, eyni zamanda daxili siyasi-hərbi proseslərlə və ondan da vacibi (Azərbaycan və Gürcüstan nümunəsində) ərazi bütövlüyü problemi ilə qarşı-qarşıya idilər.

SSRİ-nin dağılması nəticəsində yaranan boşluğu doldurmağa can atan Türkiyə, İran və Rusiya arasındakı rəqabət XIX əsrdə Britaniya İmperiyası ilə Rusiya Çarlığı arasındakı mübarizəni xatırladığı üçün  Böyük Oyun adlandırılmışdı. Zaman keçdikcə əvvəlcə İranın, sonra isə Türkiyənin nəzərdə tutulan böyük oyunu oynaya bilməyəcəyi, iqtisadi, siyasi və sosial güclərinin yetərli olmadığı başa düşüləndə İkinci Böyük Oyunun tərəfləri yenidən formalaşdı. "Yeni Böyük Oyun" nədir və nə zaman ortaya çıxmışdır? "Böyük oyun" anlayışını ilk dəfə 1837-1840-cı illərdə Orta Asiyada xidmət etmiş İngilis kəşfiyyatçı Artur Konolli işlətmişdir. 1901-ci ildə Rudyard Kiplinqin "Kim" romanında istifadə edilən bu anlayış ingilis Halford Makkinder sayəsində geniş yayılıb. Əslində bu anlayış XIX əsrdə Orta Asiya regionunda o dövrün dünya dövləti olan Britaniya İmperiyası ilə Asiyanın böyük dövləti olan Rusiya Çarlığı arasında regional güc mübarizəsini ifadə etmək üçün istifadə edilmişdir. Rusiyanın Qafqaza və Orta Asiyanı işğal etməsi, daha sonra Hind okeanına enmək istəyi İngiltərə ilə tərs düşməsinə səbəb oldu. Sözügedən dövrdə Makkinder "Kim Avrasiyada hökmranlıq edirsə, dünyaya da hakimdir" fərziyyəsini irəli sürmüşdür ki, [5, s. 16]

Cənubi Qazqaz bölgəsi Sİ – nın dağılması ilə keçən əsrin əvvəllərindən qalan bəzi məsələlər gündəm olmağa başladı ki, bu da bölgəni qarışıq hal gətirirdi. Bölgənin bu vəziyyətdə olması həm də buradakı yeni müstəqil dövlətlərin varlığını təhlükə altında qoyurdu. Bölgə öz geosiyasi və strateji əhəmiyyətinə görə dünya dövlətlərinin xarici siyasətində həmişə ön sırada olması materikə hakim olmaq istəyən güclər tərəfindən tarix boyu gedən siyasi oyunların mərkəzində olmuşdur. Əvvəllər Cənub Qafqaz beynəlxalq gündəmin periferiyasında idi, lakin yeni müstəqil

dövlətlərin yaranmasından sonra həm qonşuları, həm də regiondan kənarda olan nüfuzlu aktyorlar üçün daha çox əhəmiyyət kəsb etdi. Digər bir tərəfdən isə Cənubi Qafqaz Xəzər dənizi neftinin və qazının nəqlində strateji yer tutan çoxşaxəli geosiyasi regiondur [13]. Bir tərəfdən Sİ dağılmasından sonra onun varisi hesab olunan Rusiyanın rəhbərliyi ilə MDB yaranması ilə hər şeyin köklü şəkildə dəyişəcəyinə ümid edən dövlətlər var idisə, digər tərəfdən, bu dövlətlər öz daxili problemləri ilə - dövlətlərin formalaşdırılması, milli iqtisadiyyatların yaradılması, ekstremizmə qarşı mübarizə və s. ilə məşğul idilər. Bölgənin əsas problemlərindən biri olan enerji resurslarının təhlükəsiz və tez bir zamanda Qərb bazarlarına daşınması məsələsi olurdu ki, bu da bölgəyə maraqlı olan dövlətlərlə xüsusən, Türkiyə ilə Rusiyanın tərs düşməsi ilə nəticələndi.

Niyə məhz böyük güclərin rəqabət sahəsinə Cənubi Qafqaz bölgəsi çevrilmişdir? Çünki Cənubi Qafqaz bölgəsi ABŞ başda olmaqla Qərb dünyası və regiona qonşu olan- Rusiya, Türkiyə, və İran üçün strateji məqsədləri istiqamətində böyük əhəmiyyət daşıyır. Ümumiyyətlə, Cənubi Qafqaz regionu müasir dövrdə Qərb, xüsusilə də ABŞ üçün bölgə bir neçə strateji əhəmiyyətə malikdir:

- Təhdid (və təhlükə mənbəyi) olaraq qəbul edilən Rusiyanı çevrələmək (əhatəyə almaq);
- Təhdid mənbəyi olaraq qəbul edilən İranı çevrələmək;
- Bölgədəki təbii ehtiyatları sahiblənmək, neft-qaz yataqları ilə bağlı müqavilələrdə iştirak etmək (həm strateji maraqlar, həm də iqtisadi/ticari səbəblər);
- Bölgədəki təbii ehtiyatların beynəlxalq bazarlara çıxarılmasını etibarlı bir şəkildə təmin etmək (beləcə həm alternativ təbii ehtiyatlara sahib ola bilmək, həm də bölgə dövlətləri üçün ixrac yolu müxtəlifliyi yaratmaq - siyasi maraqlar);
- Alternativ bazar olaraq istifadə etmək;
- Təhlükəsizlik (“terror əleyhinə fəaliyyətlər”) və digər qlobal siyasətlərində əsas, eyni zamanda bu məqsədlər istiqamətində Orta Asiyaya çıxış qismində tranzit bölgə kimi istifadə etmək (belə ki, Orta Asiya bölgəsi Qərbin rəqibləri/düşmənləri olan Rusiyanı cənubdan, İranı şərqdən, Çini şimal-qərbdən çevrələmək baxımından da əhəmiyyət daşımaqdadır. Başqa bir baxış bucağıyla isə Orta Asiya dörd fərqli inancı təmsil edən nüvə dövlətlərinin - Rusiyanın, Çinin, Hindistanın və Pakistanın ortasında yerləşən bölgə olması baxımından ciddi əhəmiyyət daşıyır). [2]

Regionda gedən enerji rəqabətində əsas oyunçulardan biri ABŞ – dır. ABŞ – ın bölgə strategiyası əsasını Xəzər hövzəsindəki enerji qaynaqları və onların təhlükəsiz daşınması məsələsidir. ABŞ administrasiyasını region dövlətlərində hakimiyyətdə kimin olduğu maraqlandırmır. Vaşinqtonu əsas maraqlandıran region dövlətləri olan Azərbaycan və Gürcüstanın enerji siyasətidir. ABŞ Moskvanın region siyasətini tənəzzülə uğratmaq məqsədi ilə rusiyapərəst və ya ABŞ və Rusiya arasında tarazlığa meylli olan rejimləri Vaşinqton açıq və ya gizli dəstəyi ilə hakimiyyət dəyişikliyi edərək özünə tabe olan rejimlərlə əvəzləməklə Rusiya və onu region siyasətində dəstəkləyən İranın qarşısını almağa çalışır. Beləliklə Gürcüstanın geosiyasəti onu beynəlxalq münasibətlərin dəyişən konyukturasında daha da vacib edib. Bu mənada Sİ - da birgə və sülh şəraitində yaşayan Rusiya və Gürcüstan Sİ dağılandan sonra birdən-birə “düşmən” oldular. Digər tərəfdən, Gürcüstan NATO və Aİ səviyyəsində Avropanın, eləcə də ABŞ-ın maraq dairəsində olan ölkədir. Bu, əslində beynəlxalq balansların dəyişməsinin nəticəsidir. Gürcüstan Qərb xüsusən, ABŞ və Rusiya arasında münaqişənin yeni mərhələsidir və Rusiya Gürcüstanı öz orbitinə qaytarmaq üçün səylər göstərir. Çünki Rusiya ilə Gürcüstanın ayrılmasının ruslara Sİ - nın dağılması ilə digər ərazi itkilərindən daha çox zərər verdiyi deyilir [1, s. 110]. Bütün ümidverici əlamətlərə baxmayaraq, tez bir zamanda məlum oldu ki, Türkiyə nə onlardan istifadə etmək iqtidarındadır, nə də hakimiyyət boşluğunu doldurmaq cəhdində təkbaşına. Rusiya Federasiyası, Türkiyə, İran və ABŞ (digərləri arasında) özlərini əsas oyunçular kimi təsəvvür edən “Böyük Oyun”un əsrin nüsxəsi. Onların arasında rəqabət iqtisadi, siyasi, ideoloji və dini ölçülər götürdü və beləliklə, geniş yayılmış münaqişə üçün müxtəlif imkanlar yaratdı. Tiflisin son 8 ildə Qərblə bütün səviyyələrdə münasibətləri dərinləşdirmək siyasəti ilə paralel olaraq Rusiya ilə də ehtiyatlı davranışını, rəsmi Moskvanı qıcıqlandıran addımlardan çəkinməsini Gürcüstan xarici

siyasətinin əsas elementlərindən hesab olunmalıdır. Bütün bunlarla bərabər, bəzi təhlilçilərə görə Rusiyanın Abxaziya və Cənubi Osetiyanı Gürcüstandan "qoparması" rəsmi Moskvanın Gürcüstana olan geostrateji maraqlarını azaltmışdır. Onların fikrincə, Rusiyanın "müstəqilliyini" tanıdığı Gürcüstan ərazilərini, Cənubi Osetiyanı və Abxaziyanı nəzarətə götürməklə, bu regionlarda hərbi bazalarını yerləşdirməklə Cənubi Qafqazda hərbi – siyasi iştirakını möhkəmləndirir və Gürcüstanın da Qərbin əsas strukturlarına tam inteqrasiyasını əngəlləyir. Türkiyə nöqteyi-nəzərindən İran və ya Rusiya ilə hərbi qarşıdurma ehtimalı kifayət qədər narahatlıq yaratdı. Türkiyə İranın bütün Qafqazda müsəlman insanların kimliyinə təsir göstərməyə cəhd edəcəyindən narahat idi və bu, o zaman RF və ümumiyyətlə Qərb tərəfindən paylaşılmışdı. İran isə Türkiyənin bölgədəki fəal rolunun onun sərhədlərində pantürk hegemonluğu yarada biləcəyindən narahatdır. Beləliklə, Avrasiyanın türk-müsəlman xalqları üçün iki əks siyasi inkişaf modeli: siyasi plüralizmi ilə Türkiyənin dünyəvi modeli və İran tərəfindən dəstəklənən islamçı model arasında qısa müddətdə rəqabət baş verdi. Bununla belə, tezliklə aydın oldu ki, heç bir ölkənin öz ambisiyalarını dəstəkləmək üçün kifayət qədər siyasi nüfuzu və iqtisadi gücü yoxdur.

2007-ci ildə genişlənmə nəticəsində Cənubi Qafqazın Aİ ilə (Qara dəniz vasitəsilə) sərhəd bölgəsinə çevrilməsi, təbii ki, təşkilatın bölgənin daxili problemlərinə fəal yanaşması ilə nəticələdi. Bununla belə, Cənubi Qafqaz Aİ-nin yeni qonşuluq konsepsiyasında, Amerikanın Yaxın Şərq rolunda və Rusiyanın MDB ölkələrinə inteqrasiyasında "rol modelində" müxtəlif mənalar daşıyır. Qeyd etmək lazımdır ki, bütün bu modellərdə Cənubi Qafqaz regionu xüsusi əhəmiyyət kəsb edir [6]. Bəzi ekspertlər Sİ-nın dağılmasından sonra Türkiyə tərəfindən Qafqazda Aİ–yə bənzər yeni birliyin yaradılması fikri formalaşmışdır. Bunu Türkiyə daha çox həvəsli idi ki, Qara dəniz və Qafqaz regionunda bele bir birlik yaratsın. Türkiyə regionu özünəməxsus şengen zonasına və sülh regionuna çevirmək çalışırdı. Amma bu mərhələ üçün Cənubi Qafqazda çürük münaqişələrin tez bir zamanda həlli lazım idi. Rusiya çətirinin mütləq əvəzlənməsi lazımdır, amma okeanın o tayından, yaxud Qafqaz dəyərlərinə yad Avropa çətiri ilə yox. Bu çətir qonşu Türkiyənin olması bölgə dövlətləri üçün çox əhəmiyyətli olardı. Bu halda artıq sərhədlərə yenidən baxmağa ehtiyac qalmayacaq və bölgədə yaşayan müxtəlif millətlər arasında separatizm dəstək tapmayacaqdı. Regionda maraqları olan böyük dövlətlərin rəqabətində Xəzər enerji qaynaqlarının əsas yer tutması və bu qaynaqların bölüşdürülməsindən pay almaq istəyən Aİ, ABŞ və Çin kimi mühüm aktorları olması regionda siyasi vəziyyəti gərginləşdirir ki, bu da buradakı dövlətlərin daxili siyasi vəziyyətini çətinləşdirir.

XX əsrdə ikinci dəfə müstəqilliklərini qazana Cənubi Qafqaz ölkələri - Ermenistan istisna olmaqla Gürcüstan və Azərbaycan üzlərini Qərbə dönsələr də bu proses özünü çox bəlli etmirdi. Hələ də Cənubi Qafqaza postsovet məkanı kimi baxan ekspertlərdə var. Çünki Rusiya SSRİ-nin varisi olmaqdan aldığı güclə bu regiondakı maraqlarından imtina etmədi. Ancaq son zamanlar baş verən təlatümlü hadisələri yalnız Rusiya periferiyasının bir hissəsi kimi təhlil etmək səhvdir. Bölgədəki bu dövlətlər Aİ – yə inteqrasiya etməyə çalışsalar da, Rusiyadan uzaqlaşa bilmirlər. Eyni zamanda, Cənubi Qafqaz etnik rəngarəngliyi ilə da Avrasiya materikində partlamağa hazır bölgələrdə biridir. Bu da separatizmi müdafiə edən Rusiyaya imkan verir ki, region dövlətlərinin daxili işlərinə qarışsın. Xatırladaq ki, SSRİ-nin dağılmasından sonra 9 silahlı toqquşma olub, onlardan 6-sı Qafqaz regionunda baş verib [20].

Müasir dövrdə enerji amili beynəlxalq münasibətləri formalaşdıran əsas rol oynayır. Enerji ehtiyatlarının yer üzündə ədalətli şəkildə bölünməməsi beynəlxalq münasibətlərdə böyük güclər arasında amansız mübarizəyə səbəb olur ki, bu da bölgə dövlətlərin zəifləməsinə səbəb olur. Enerji siyasətinin ən mühüm aktorlarından biri olan Rusiya böyük ölçüdə qurduğu bu monopoliya strukturunu saxlamaq üçün Cənubi Qafqaz ölkələrinə qarşı enerji resurslarının istehsalı, ixracı və nəqli ilə bağlı nəzarət siyasətini davam etdirir. Buna görə də Rusiyanın bu siyasətinin inkişafını, məzmununu və məqsədlərini araşdırmaq vacibdir. Sürətlə dəyişən və çoxqütblü quruluşa malik olan, xarici "güc mərkəzlərinin" yüksələn hiss Cənubi Qafqaz üzərində Rusiya "təzyiqini" azaltmaqla azad ticarət zonası yaratmağa çalışan Türkiyə nəinki

mühüm gücdür, həm də bölgədə ən fəal geostrateji aktorlardandır.

Bu rəqabətdə Rusiya keçmiş sovet coğrafiyasına daxil olan dövlətləri MDB kimi qurum çərçivəsində toplamağa çalışır və Moskvanın siyasətinə yaxın liderləri dəstəkləyirdi. ABŞ isə rəngli inqilablar həyata keçirməklə bu dövlətləri öz nəzarəti altına almaq və Rusiyanın təzyiqlərini azaltmaqla bölgənin enerji resurslarına və tranzit yollarına nəzarəti ələ keçirməyə çalışır. ABŞ-da 11 sentyabr terror hadisəsindən sonra əməkdaşlıq mühitindən və Əfqanıstan əməliyyatının logistik ehtiyaclarından istifadə edərək Rumıniyadan Özbəkistana qədər geniş bir ərazidə bazalar və uçuş hüquqları əldə etdi. Bir tərəfdən ABŞ-ın planlarının əsas yeri tutan enerji daşınması lahiyələrinin uğurla həyata keçirilməsi, digər tərəfdən isə Gürcüstanda, Ukraynada və nəhayət, Qırğızıstanda baş verən dəyişikliklərdən sonra Vaşinqton özünün Avrasiya siyasətini böyük bir hissəsini həll etmiş oldu.

Türkiyənin Cənubi Qafqaz siyasətində isə regionda daimi sülhün və təhlükəsizlikyin yaranması üzərində qurulmuşdur. Onu da qeyd etməliyik ki, regionda əvvəllər yalnız marjinal təsirə malik olan Ankara, Sİ-nın dağılması ilə fəal iştirak etmədiyi regionlarda (Cənubi Qafqaz və Orta Asiya regionlarında) mühüm oyunçulardan birinə çevrildi. Regiondakı iqtisadi və siyasi şəraitin qısa müddət ərzində sabitləşməsi ehtimalı az olsa da, şübhəsiz ki, Ankara ilə region dövlətləri arasında yeni qarşılıqlı asılılıq şəbəkələri yaratmaq üçün səylərini davam etdirəcəklər. Şübhəsiz ki, digər regional oyunçular, xüsusən də Rusiya və İran bu siyasətlərə şübhə ilə baxmağa və regional problemlər yaratmağa davam edəcəklər. Türkiyənin Avrasiya ilə bağlı ilkin mövqeyi bir qədər qeyri-real olsa belə, onun yaratdığı təsirlər Ankara siyasətinin tonunu təyin etdi. Türkiyə mütləq regiondakı yeni dövlətlərinin can atdığı modelə çevrilməsə də, onun inkişaf edən bazar münasibətləri, İslama dünyəvi, plüralist yanaşması və demokratiyası regionda öz cazibəsini davam etdirir. Bu arada Türkiyə Rusiya ilə münasibətlərindən iki mühüm dərs aldı: Rusiya Türkiyə üçün mühüm iqtisadi tərəfdaşdır və regionda həddindən artıq aqressiv xarici siyasət aparan Moskva ilə birbaşa qarşıdurmaya çevrilmə riskini nəzərə almaq və Rusiyaya qarşı həssas siyasət aparmaqla əməkdaşlığa üstünlük vermək.

**Gürcüstan, Türkiyə-Rusiya rəqabətində.** Hər bir dövlətin xarici siyasətinin, o cümlədən də müdafiə strategiyasının formalaşmasında əsas rol oynayan faktorların sırasında ölkənin coğrafi mövqeyi, geosiyasi yerləşməsi, ərazi tutumu, əhalisinin sayı, iqtisadi, hərbi, elmi - texniki potensialı mühüm yer tutur. Ümumiyyətlə Xarici siyasət qarışıq bir fenomendir. Müasir dövrdə xarici siyasətin müəyyən edilməsi bir sıra faktorlardan asılıdı. Buraya iqtisadi, etnik, coğrafi və digər faktorlar daxildir. Xarici siyasət bütün bu faktorların bir-birilə qarşılıqlı əlaqədə olması zamanı reallaşır. Dahi şəxsiyyət Bonapart Napaleondan soruşanda ki, qonşular kimdir cavab vermişdir; Qonşular! Qonşuları mən seçirəm [6 s. 3]. Lakin dövlətin xarici siyasətini müəyyən edən faktorların birincisini B.Napaleon unutmuşdur. Çünki onun zamanında müharibə beynəlxalq münasibətlərin müəyyən edilməsində əsas vasitə idi. Müasir dövrdə kiçik dövlətlərin xarici siyasət, müdafiə strategiyaları ilə bağlı qərarlarını təhlil etməzdən əvvəl hansı ölkələri kiçik dövlət kimi müəyyənləşdirməliyik sualına cavab verilməlidir. Ümumiyyətlə, dövlətlər beynəlxalq münasibətlərdəki roluna görə fərqlənirlər və şərti olaraq bir neçə qrupa bölünürlər : a) fövqəldövlətlər b) böyük dövlətlər c) regional dövlətlər d) kiçik dövlətlər. Tarixən, kiçik dövlətlər o dövlətlər hesab olunurdu ki, onlar böyük güc sayılmırdı, başqa sözlə desək, beynəlxalq düzənə hər hansı fərqlilik gətirmək və yaxud bu düzənin qaydalarını dəyişmək baxımından xeyli zəif qəbul olunurdu.

Cənubi Qafqaz ölkələri haqqında bunu demək bir qədər çətindir. Cənubi Qafqaz dünya xəritəsində elə də geniş olmayan bir bölgə olmasa da, beynəlxalq təşkilatlar və dövlətlər tərəfindən daim maraq dairəsində olması onun coğrafi ölçüsünü xeyli üstələyir. Bölgədə yeni müstəqilliyini qazanan milli dövlətlər öz maraqlarını və siyasi prioritetlərini müəyyən etməyə çalışdığı üçün Cənubi Qafqazın geosiyasi dinamikası gərgin haldadır. Yeni minilliyin başlanğıcında Cənubi Qafqazda nüfuz uğrunda gedən qlobal problemlərə Türkiyə seyrçi qala bilməzdi. Çünki Cənubi Qafqazdakı problemlərin bir hissəsi Ankaranın region siyasətin reallaşmasına maneə olurdu. Türkiyənin region

siyasətinin əsasında buradakı müstəqilliyini yeni qazanmış dövlətlərin reaksiyası idi. Ermənistan istisna olmaqla Azərbaycan və Gürcüstan Türkiyə ilə siyasi və iqtisadi əməkdaşlıqda maraqlı idilər. SSRİ-nin rəsmi olaraq dağılmasından sonra tezliklə Türkiyədə yeni siyasət oriyentasiyası həyata keçirildi. Beləliklə Türkiyə ilk növbədə Cənubi Qafqazda yeni müstəqil olan dövlətləri tanıdı. Tanındıqdan sonra Türkiyə Ermənistan istisna olmaqla, onların hər biri ilə səfirlər səviyyəsində diplomatik münasibətlərə başlamaq üçün protokollar imzaladı. Türkiyənin əsas məqsədi Xəzər hövzəsi ətrafında yeni müstəqillik qazanan türk dövlətlərinin birliyini yaratmaq idi. Bununla da Türkiyə dünyanın maraq dairəsində olan Xəzər dənizi enerji ehtiyatlarına nəzarət etmək istəyindən irəli gəlirdi ki, Ankara bu məqsədləv1992-ci ilin oktyabrında İstanbulda Türk dövlətlərinin prezidentlərinin ilk Sammitinə ev sahibliyi etmişdir. Birbaşa hava əlaqələri və peyk yayımı qurulmuş və bu fəaliyyətləri asanlaşdırmaq üçün Ankarada Türk Beynəlxalq Əməkdaşlıq Agentliyi yaradılmışdır [2, s. 39-40]. Cənubi Qafqazda Sİ - nın dağılması ilə başlayan yeni müstəqil dövlətlərin yaranması bir sıra mühüm siyasi-coğrafi və sosial-iqtisadi proseslərlə müşayiət olundu. Onların arasında həm iqtisadi, həm siyasi, həm də humanitar əlaqələr sisteminin transformasiyası nəticəsində ilk olaraq üç Cənubi Qafqaz ölkəsinin çoxvektorlu siyasi modelinə keçidi müşahidə olundu. İki əsirlik Rusiya əsarətinin sona çatması regionun inkişafı üçün pəncərə açmış oldu. Lakin Rusiya yeni ittifaqlar qurmaqla "parçala və hökmranlıq et" siyasətini davam etdirmək niyyətində idi (Avrasiya İqtisadi İttifaqı və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olan Ermənistan üçün Rusiya ilə yuxarıda qeyd olunan yaxınlıq formallıq forması kimi təqdim olunur) [8, s. 7]. Xüsusən XXI əsrin əvvəllərində Moskvanın qəsibkarlıq siyasət Cənubi Qafqaz və Mərkəzi Asiyada özünü göstərməyə başladı.

Cənubi Qafqazda yeni müstəqillik qazanan dövlətlərdən biri Gürcüstan idi ki, ilk müstəqillik qazanan gündən regionda gedən oyunun mərkəzində olmuşdur. Lakin buna baxmayaraq, Gürcüstanın xarici siyasət strategiyasında ciddi dəyişikliyin baş verməmişdir ki, bu da ölkə daxilində gedən tənəzzüllə əlaqədar idi. Fikrimizcə bu dönəmdə Gürcüstanın xarici siyasətində təsir göstərən əsas amillərdən biri də Rusiyanın qəsbkarlıq siyasət idi. Gürcüstan, Sİ dağılmasından sonra dünyanın diqqət mərkəzində olan "Avrasiyanın Balkanları" adlanan Cənubi Qafqaz regionunun bir hissəsidir. Ukrayna-Qara dəniz-Azərbaycan-Xəzər-Mərkəzi Asiya xətti, Türkiyə-Rusiya xətti, Rusiya-İran xətti və Türkiyə-Azərbaycan-Xəzər dənizi-Mərkəzi Asiya xətti üzərində yerləşən Gürcüstanın "tranzit" coğrafiyası mövqeyindədir. Rusiyanın maraqlarında olan qara dəniz limanları əsasən yerləşən coğrafi ərazidir [1, s 107-108].

Fikrimizcə bu meqalədə Gürcüstanın bölgə siyasətini geniş anlamaq üçün bölgənin lider dövləti olan Azərbaycan ilə əməkdaşlığın xüsusən 44 günlük müharibədən sonrakı siyasi münasibətlərin araşdırılması vacib şərtdir. Bu gedişat müxtəlif istiqamətlərdə ABŞ-Türkiyə ortaq fəaliyyətini çox zəiflədib. O cümlədən Cənubi Qafqazda bu iki dövlətdən hər hansı birinin fəallaşması, digərinin də fəallaşması demək deyil. Lakin Türkiyə ilə İranın regionun böyük dövlətləri olduğunu, tarixən burada ciddi təsirlərinin mövcudluğunu nəzərə alaraq belə bir vəziyyətin müəyyən riskləri ortaya çıxara biləcəyini təxmin etmək mümkündür. Eyni zamanda, başqa bir faktoru da unutmaq olmaz. Başqa bir tərəfdən hazırda Cənubi Qafqazda Türkiyə geosiyasi aspektdə Rusiya ilə ortaq fəaliyyət göstərir. Azərbaycan və Ermənistan arasındakı müharibədən sonra iki dövlət münaqişənin həllində sözün həqiqi mənasında ciddi nəticələr əldə ediblər. Hətta o dərəcədə ki, Türkiyə-Rusiya regional əməkdaşlıqlarını geosiyasi yaxınlığı olan bir sıra böyük dövlətlər bu münasibətə qısqanclıqla yanaşırlar. Son hadisələrdən sonra fikrimizcə, Türkiyə geosiyasi kursunu dəyişir. Bunu da əsas səbəbi kimi Böyük güclər burada güddükləri maraqlarından hələ vaz keçməyiblər və onları təmin etmək üçün çalışırlar. Hələlik ABŞ və Rusiya daha fəal görünürlər. Son zamanlar Fransa və Almaniya da müəyyən cəhdlər edirlər. Onların fonunda regionun iki böyük dövləti İran və Türkiyə bir qədər passiv mövqeyə çəkiliblər. Belə bir vəziyyətdə regionda sülh naminə "3+2" formulu, yəni "ABŞ, Rusiya, Aİ üstəgəl Türkiyə və İran" geosiyasi konfiqurasiyası yarana bilərmi? Bu sualın cavabı məlum deyil. Lakin regionda situasiya istənilən an kəskin dəyişə bilər və təşəbbüs indi meydanda aktiv olmayan dövlətlərin əlinə keçər. Bu ssenari də istisna edilmir [8].

Gürcüstanın yeganə Cənubi Qafqaz dövlətidir ki, Qara dənizə birbaşa çıxışı vardır. Bu da Gürcüstanın region geosiyasətinə birbaşa təsir göstərir. Belə ki, Xəzər dənizi hövzəsi enerji ehtiyatlarının təhlükəzi Avropa bazarlarına daşımaq üçün sabit bir Gürcüstana ehtiyacları vardır. Müasir geosiyasi nəzəriyyələrə görə, dünya ticarətinin əsas qloballaşmalarından birini təşkil edən Qara dəniz böyük güclərin maraqlarının kəsişdiyi mühüm regiondur. Çünki Makkinderin "quru hökmranlığı nəzəriyyəsi"nə görə, "mərkəzi" bölgəyə ən asan çıxışı təmin edəcək vəziyyətdə olan Qara dəniz, Spykmanın "kənar qurşağı nəzəriyyəsi"nə görə Avropanı Yaxın Şərq və Asiya ilə birləşdirir. Mahanın "dənizdə hökmranlıq nəzəriyyəsi"nə görə, Qara dənizdə hökmranlıq edən güc bölgəyə nəzarət etmək üçün coğrafi mövqeyə malik olacaqdı. Schaklian-ın "hava hökmranlığı nəzəriyyəsinə" görə, Qara dəniz mərkəzi bölgəyə və dünya adasına hakim olmaq üçün coğrafi mövqedədir(10, s. 2). Tiflisin xarici siyasət strategiyasında beynəlxalq münasibətlərin 3 vacib aktoru (NATO, Aİ, ABŞ) ilə münasibətlərin dərinləşdirilməsi prioritet olaraq qəbul edilir və bu istiqamətdə qarşılıqlı olaraq xeyli işlər görülüb. Buna baxmayaraq, Gürcüstan hələ də hər 3 güc mərkəzi ilə münasibətlərində əsas məqsədlərinə çata bilməyib. Belə ki, ölkənin NATO və Aİ üzvlüyü yaxın perspektivdə qeyri – müəyyən görünür, Birləşmiş Ştatlar isə Gürcüstana NATO – dan kənar təhlükəsizlik qarantiyası verməkdə həvəsli görünmür. Bütün bu amillər Gürcüstan ətrafında ilk növbədə təhlükəsizlik risklərini periodik olaraq artırır [14 s 5].

Gürcüstan xarici siyasətində digər regional "oyunçular" olan İranla da münasibətlərə xüsusi önəm verir. Rəsmi Tiflisin Türkiyə ilə münasibətlərdə prioritet hesab etdiyi faktorlar ölkənin regional iqtisadi və təhlükəsizlik maraqları ilə bağlıdır. Son illərdə Gürcüstan iqtisadi – ticari, enerji, təhlükəsizlik – müdafiə sahələrində Türkiyə ilə əməkdaşlığnı xeyli genişləndirib. Xüsusilə enerji və təhlüksizliklə bağlı yalnız ikitərəfli deyil, üçtərəfli (Azərbaycan – Gürcüstan – Türkiyə) tərəfdaşlıq münasibətlərinin ciddi əsaslarının formalaşdığını qeyd edə bilərik. Məhz bu əməkdaşlığın nəticəsində regionda böyük enerji, nəqliyyat layihələri (BTC, Bakı-Tiflis –Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi, Bakı – Tiflis – Qars dəmiryol xətti və s.) həyata keçirilib. 2012 – ci ilin iyununda üç ölkənin xarici işlər nazirlərinin birgə imzaladığı Trabzon bəyannaməsi regionda Gürcüstan – Azərbaycan – Türkiyə münasibətlərinin ümumi konturlarını müəyyənləşdirdi. Konseptual yanaşdıqda Gürcüstan, ilk növbədə, Rusiya amilinə görə Türkiyənin Cənubi Qafqazda cərəyan edən proseslərdə fəal iştirakında maraqlıdır. İki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinə baxmayaraq, son illərdə Gürcüstan – Türkiyə münasibətlərində meydana çıxan bəzi problemləri də nəzərdən qaçırmaq doğru olmazdı. Türkiyənin Osmanlının keçmiş əraziləri olan Acarıstan və Abxaziyada təsirinin artması rəsmi Tiflisi narahat edən əsas məqamlardandır. Xüsusilə Türkiyənin tanınmamış Abxaziya Respublikası ilə qeyri– rəsmi siyasi, iqtisadi, mədəni əlaqələr qurması zaman – zaman Tiflis – Ankara münasibətlərində gərginlik yaradır [7].

Gürcüstanın son vaxtlar üzləşdiyi bəzi problemlərin dərin tarixi kökləri olduğu görünür. Bəziləri isə xüsusilə müstəqillik əldə etdikdən sonra milli kimliyin qurulması prosesində meydana çıxan kimi görünür. Bu prosesdə belə ciddi mənfi və ya əks təsirlərin yaşanmasının səbəbi, görünür, milli kimliyin həm din, həm də etnik mənsubiyyət baxımından kövrək bir coğrafiyada inklüziv elementlər deyil, assimilyasiya və marginallaşdırıcı (yaxud özgəninkiləşdirən, başqalaşdıran) terminlər üzərində qurulmasıdır. Gürcüstanda qurulan bu milli özünəməxsusluq onun xarici siyasətinə, xüsusən də müstəqilliyin ilk illərində dərindən təsir göstərmişdir. İlk illərdə ölkədaxili sülhün bərqərar olması və Rusiya ilə münasibətlərin qorunub saxlanmasında sərt münasibət və/yaxud siyasət daxildə keçmiş sovet işçilərinə qarşı qərəzli və marginal, xarici siyasətdə isə Rusiyaya qarşı düşmən münasibətə səbəb olmuşdur. Abxaziya və Cənubi Osetiya problemini nəzərə alsaq, bu iki regional problemin sülh yolu ilə həll oluna bilməməsinin ən mühüm səbəbi kimi millətçi siyasət önə çıxır. Müstəqillikdən sonrakı dövrdə Gürcüstanın daxili siyasətində həyata keçirdiyi bu etnik-dini millətçilik və dini ayrılıq siyasəti ölkə daxılındə ixtişaşlara səbəb olur ki, bu da onun xarici siyasətini ləngidir.

**Ermənistan-Azərbaycan müharibəsi sonrası regionda Türkiyə - Rusiya regional əməkdaşlığı: problemlər və gələcək prespektivlər.** Cənubi Qafqazda XX əsrdə ikinci dəfə öz

müstəqilliyini qazanan Azərbaycan Qara dəniz vasitəsilə Avropa ölkələrinə neft ixracı üçün istifadə etdiyi marşrut olan Gürcüstan, Sİ dövründə də olduğu kimi tranzit marşrutunda əhəmiyyətini qoruyub saxlamışdır. Avropa-Cənubi Qafqaz münasibətlərində Konsepsiyasına əsasən, mərkəz Avropaya inteqrasiyanın hazırkı iştirakçılarından olan Azərbaycan və Gürcüstan iqtisadi inkişafları üçün Qərb bazarlarına daxil olmaları vacib şərtdir. Başqa bir periferiya yanaşmasına görə, Cənubi Qafqazı funksional baxımdan digər regionlar arasında tranzit əhəmiyyəti böyükdür ki, müvafiq olaraq, Aİ-nin Cənubi Qafqazla ticarət əlaqələri periferik xarakter daşıyır və istehlak bazarı kimi region Aİ ölkələri üçün mühüm əhəmiyyət kəsb edir. Bu ilk növbədə Xəzər hövzəsi enerji ehtiyatlarının təhlükəsiz daşınması ilə əlaqədardır. Ona görə ki, Xəzər hövzəsi enerji ehtiyatlarının təhlükəsiz daşınması Aİ-nin Fars körfəzi və Rusiyadan asılılığını azalda bilər(21, s. 165). Bu da regionda təhlükəsizlik və sabitlik siyasətinin əsasını təşkil edir ki, Aİ buna nail olmaq üçün ilk növbədə, Cənubi Qafqaz münaqişələrinin həllinə nail olmalıdır. Lakin bu, heç də o demək deyil ki, Cənubi Qafqaz Avropanın iqtisadi və təhlükəsizlik maraqlarına qarışmır. Çünki Xəzər dənizi enerji ehtiyatları artıq Avropa neft şirkətlərini marağını cəlb edib və Aİ-nin enerji təhlükəsizliyi sistemində müəyyən yer tutur. Ermənistan-Azərbaycan və Rusiya-Gürcüstan fikir ayrılıqları həqiqətən də Aİ-nin cənub sərhədlərində sabitliyi poza bilər ki, bu da onları Avropanın əsas maraqlarına, xüsusən də Aİ-nin Cənubi Qafqaz siyasətinə təsir göstərir. Bu məqsədlə Aİ Cənubi Qafqaz siyasətini hələ ki, Rusiya ilə münasibətləri gərginləşdirməməyə çalışır. Lakin Rusiyanın Ukraynaya hücumu və təcavüzkarlıq siyasəti Aİ – ni Rusiya ilə əməkdaşlıq siyasətinin dəyişməsinə gətirin çıxara bilər ki, bu da hər iki tərəfin iqtisadi böhranla üzləşməsi ilə nəticələnməsi ilə sonuclana bilər.

Rusiyada xüsusən V.Putinin hakimiyyətə gələndən sonra yaxın çevrəsi xüsusi ilə, Cənubi Qafqaz dövləti olan Gürcüstana qarşı münasibətləri rasional siyasət çərçivəsində sovet dövründə olduğu kimi qalırdı. Rəsmi Moskva çalışırdı ki, regionda enerji resurslarının istehsalı, nəqli və paylanması sahələrində mütləq söz sahibi olsun. Bu siyasət Ermənistan üzərində uğurla həyata keçirilməkdə davam edir və xüsusilə 2008-ci ildə Gürcüstanla müharibədən sonra Moskvanın İrəvan üzərindəki nəzarəti gücləndi. Gürcüstan Rusiya təzyiqlərindən xilas olmaq məqsədi ilə regionda özünə müttəfiqlər axtarırdı, xüsusən də Azərbaycanla əlaqələri inkişaf etdirmək isə Tibilisinin yararına idi. İki ölkə arasında enerji sahəsində Şimal-Cənub təbii qaz kəməri və bir sıra enerji əməkdaşlıqları mövcud olmaqda davam edir. Rusiya isə Azərbaycanla münasibətləri gərgiləşdirməməyə çalışır, xüsusəndə Moskvanın enerji siyasəti tarixi Bakının enerji tarixi ilə iç-içə olduğundan, o, bu ölkəni heç vaxt itirmək istəmir. Bu istiqamətdə Azərbaycanla enerji əsaslı layihələr hazırlayaraq bu bazarda mövcudluğunu davam etdirmək istəyir. Rusiya dövlət hakimiyyətinin sərt strukturu xüsusilə Cənubi Qafqaz ölkələrində enerji sahəsində baş verən proseslərdə özünü göstərir. O qədər ki, rəsmi Moskva, istər enerji istehsalında, istərsə də nəqliyyat xətlərində mütləq söz sahibi olmaq istəyini daim vurğulayır. Bu vəziyyət Cənubi Qafqaz ölkələrinin daim başqa ölkələrlə əməkdaşlıq etməsində və xarici kapitalın regiona cəlb olunmasında problem ilə üzləşməsinə səbəb olur.

Suriyadakı müharibə və onun ətrafında cərəyan edən hadisələr Xəzər regionunda qonşular arasındakı ziddiyyətləri yumşaltmağa imkan verdi. Əslində, son vaxtlar Rusiya diplomatiyasının gücü və ordusunun qüdrəti ilə cənub sərhədlərində yeni geosiyasi ittifaqın yaradılmasına nail olub. Suriyada islamçı terrorçular üzərində qələbə və sonuncunun Rusiya, Türkiyə və İranın məsuliyyət zonalarına bölünməsi regionda güc balansını tamamilə dəyişdi və bu, üç ölkə liderinin Soçidə keçirilən qalib konfransında təsdiqini tapdı. Yaxın Şərqdə cərəyan edən proseslər Cənubi Qafqaz regionunda da mübahisəli məsələlər ətrafında danışıqları yerindən tərpənməsinə təkan oldu. Keçmiş İttifaq ölkələri arasında Rusiya ilə ən çox problem yaşayan ölkə Gürcüstan olub. İki ölkə arasındakı münasibətlər, Abxaziya və Cənubi Osetiya problemləri, neft kəməri marşrutları və s. məsələlər iki ölkə münasibətlərinə təsir göstərən amilllərdir. 1992-ci il yanvarın 6-da Gürcüstanda təşkil edilən çevriliş nəticəsində anti-Rusiya siyasəti ilə tanınan Z.Qamsaxurdiya hökuməti istefaya göndərildi [22, s. 601-602]. Lakin yeni hakimiyyət də rusiyapərəs siyasət yürütmək

istəmirdi. Belə ki, Gürcüstanın yeni administrasiyasının ölkədəki Rusiya hərbi bazalarının müddətinin uzadılmasına münasibəti və MDB-yə üzv olmaq istəməməsi separatçılarla münaqişələrdə özünü büruzə verdi [14, s.73-74]. Rusiyanın Abxaziya və Cənubi Osetiya bölgələrdəki münaqişələrdə separatçı qüvvələrə dəstək verməsi, E.Şevardnadze hakimiyyətini Rusiya ilə münasibətlərə diqqət yetirməyə məcbur edirdi.

Xəzər hövzəsi enerji qaynaqlarının, xüsusən də Azərbaycan neft və qazının Qərb bazarlarına nəqli ilə bağlı danışıqlar başlayandan Moskva öz maraqlarını nəzərə almayan hər hansı qərarı qəbul etmək istəmirdi. Səbəblər belə görünürdü ki, Rusiya üçün Xəzər hövzəsi enerji qaynaqlarının nəqli məsələsi artıq deyildiyi kimi, geniş regional təsirə malik olacağı gözlənilən mühüm geosiyasi sualdan daha çox iqtisadi məsələ idi. Buna görə də Moskva artıq mövcud olan Bakı-Qroznı-Novorossiysk boru kəmərinin yenilənməsinə çalışırdı ki, bu kəmər sovet dövründə Azərbaycan neftinin dünya bazarlarına ixracı üçün əsas marşrut idi(9). Sonradan tankerlərin Türkiyə boğazları vasitəsilə daşınmasını nəzərdə tutan "Rusiya" marşrutunun reallaşmasının qarşısını almaq üçün Ankara Montrö Konvensiyasının (1936) yenidən baxılmasını tələb etmişdi ki, bu da Ankara və Moskva arasında siyasi gərginliyi səbəb olmuşdur. Bu müqavilə İstanbul boğazları ticarət üçün açıq elan olunurdu. Lakin müasir supertankerlərin boğazlardan keçməsinin təhlükəli olduğunu səbəb gətirən Türkiyə bu məsələyə yenidən baxılmasını istədi. Türkiyə bəyan edib ki, konvensiyanın imzalanmasından təxminən altmış il sonra baş verən texnoloji dəyişikliklərə görə, müasir supertankerlərin boğazlardan keçidini məhdudlaşdırmaq lazımdır. Moskva dəfələrlə bu səyləri yolverilməz hesab etdiyini bildirsə də, Montre beynəlxalq müqaviləsinin etibarlılığı birtərəfli qaydada şübhə altına alına bilməz. Rusiyanın nöqteyi-nəzərincə, Ankaranın boğazlar vasitəsilə daşıma rejimini müəyyən etmək hüququ yoxdur, çünki "Bosfor sırf siyasi problemdir. Heç bir texniki və ya ekoloji problem yoxdur ki, onu real şəkildə aradan qaldırmaq mümkün olmasın; Türklər sadəcə olaraq neft şirkətlərini "əsas" Azərbaycan neftinin ixracı üçün Bakı-Ceyhan yolunu seçməyə məcbur etmək niyyətindədirlər". [17, s 80-81].

Xüsusən də Bosforda baş verən qəzadan sonra Azərbaycan neftinin ixracı üçün ümumi şəkildə "Balkan tranziti" adlandırılan yeni, alternativ layihələr ortaya çıxmağa başladı. Məsələn, 1995-ci ildə Bolqarıstanın mühəndislik naziri Xristo Totev Azərbaycan neftinin Bolqarıstanın Qara dəniz sahilindəki Burqas limanından boru kəməri ilə Yunanıstanın Egey dənizindəki Aleksandrupoli limanına nəqli təklifi ilə çıxış etmişdi [16, s. 21]. Sonra oxşar planlarla çıxış edən Yunanıstan, Makedoniya və Albaniya bu lahiyənin reallaşmasına çalışmışdılar. Bütün bu planlar Azərbaycan və ya Xəzər hövzəsi enerji qaynaqlarının tankerlərlə Novorossiyskdən Burqasa, sonra isə boru kəmərləri ilə Cənubi Adriatik və ya Egeyə daşınmasını nəzərdə tuturdu. Bununla belə, qarşıdurma kimi görünən bu tendensiya Rusiya və Türkiyə arasında əməkdaşlığın davam etdirilməsi ilə tarazlaşmışdır. Türkiyə həm də Rusiyadan bəzi hərbi texnikanı da idxal etdiyi üçün münasibətləri gərginləşdirməməyə çalışırdı. Türkiyə ölkənin cənub-şərqində və Şimali İraqda Kürdüstan Fəhlə Partiyası (PKK) yaraqlılarına qarşı istifadə üçün Rusiyadan silah, helikopter və zirehli personal daşıyıcıları almağa başlayan ilk NATO üzvüdür. 2002-ci ilin yanvarında Rusiyanın Baş Qərargah rəisi Anatoli Kvaşninin Ankaraya səfərində bu məqsədi daşıyırdı. Həmçinin, 2001-ci ilin noyabrında Nyu-Yorkda Türkiyə və Rusiya xarici işlər nazirləri iki ölkə arasındakı münasibətləri koordinasiya edən mərkəzin yaradılması haqqında memorandum imzaladılar [21]. Cənubi Qafqazın təhlükəsiz və sabit olması Türkiyə üçün geosiyasi əhəmiyyəti böyükdür. Soyuq Müharibə dövründə Ankaranın Qafqaza baxışı yalnız hərbi baxımdan məna kəsb edirdi və o, üzvü olduğu Qərb ittifaqının təhlükəsizlik qayğıları ilə paralel olaraq bölgəni həll edirdi. Soyuq Müharibə ideologiyası ilə dünyanı Qərbdən kənarda görməməyə çalışan Türkiyə SSRİ-nin dağılması ilə hazırlıqsız yaxalandı, Qafqaz və Orta Asiya regionlarına tez bir zamanda nüfuz edə bilməməsinin xarici siyasətdə qeyri-müəyyənliklər yaşamasıdı [18, s. 18]. Bu dönəmdə Türkiyənin regional siyasəti, Gürcüstan və Azərbaycanın Rusiyaya qarşı siyasi münasibətlərini möhkəmləndirmək bu iki ölkə ilə daha sıx əməkdaşlıq qurmaqdır. Ermənistan isə Türkiyəyə qarşı iddia etdiyi "qondarma soyqırım" iddialarına və Azərbaycanla Dağlıq Qarabağ probleminə görə

bu qrupdan kənarda qalır. Sİ dağılması ilə Türkiyənin yeni Cənubi Qafqaza nüfuz etməsi üçün bir sıra məsələləri həll etməli idi. İlk növbədə Türkiyənin bir çox cəhətdən üzləşməli olduğu Qafqaz-Şərqi Anadolu bölgəsinin müdafiə və təhlükəsizliyinin təmin edilməsi, Orta Asiya və İdil-Ural bölgəsindəki, əsasən də türk və müsəlman icmalar ilə əlaqələrini gücləndirərək, ümumən Türkiyəyə rəğbət bəsləyən, strateji yeraltı sərvətləri sayəsində region xalqları ilə sosial-iqtisadi və siyasi əlaqələrin qurulmasının təmin edilməsi, əlverişli xammal və bazar imkanlarının yaradılması kimi fundamental məsələlərdə üstünlüklər təmin edə bilən ölkə olmalı idi. Rusiyanın öz enerji resurslarının dünya bazarlarına çıxarılması Qara dəniz bağazları vasitəsi ilə olduğu üçün onu Türkiyə üçün təhlükədən uzaqlaşdırır. Türkiyə Orta Asiyada yeni müstəqilliyini qazanan türk respublikaları ilə əməkdaşlığı üçün Cənubi Qafqaz keçid olmalı idi ki, bu keçidi sındırmaq Türkiyənin türk dünyası ilə əlaqələrini qırmaq deməkdir. Qafqaz Türkiyə ilə Rusiya arasında bufer zonadır. Ona görə də Qafqazın müstəqil və sülhsevər dövlətlərdən ibarət struktura malik olması Türkiyənin təhlükəsiz olması deməkdir. Bölgənin zəngin yeraltı sərvətlərinin Türkiyə vasitəsilə dünya bazarlarına açılması Türkiyəni yeni dünya düzənində daha dəyərli edir. Eyni zamanda, bölgədə türk varlığının müstəqilliyinin və suverenliyinin davam etdirilməsi üçün müsbət mühit yaradır(4).

Azərbaycan – Ermenistan arasında 44 günlük müharibədən sonra Türkiyə Rusiyanın bölgə siyasəti qiymətləndirmək çətindir. Bəzi ekspertlər Ankara və Moskvanın 44 günlük Azərbaycanın ədələtli müharibəsindən sonra bölgədəki əməkdaşlıqlarını mülahizə edərkən Ağdamda hər iki dövlətin mərkəzinin fəaliyyətinin Cənubi Qafqazda sülhün möhkəmləndirilməsində, xüsusən də Moskva ilə Ankara arasında tərəfdaşlıq əlaqələrinin inkişafında oynayacağı rolu xüsusi olaraq vurğulayırlar. "Moskva-Bakı" agentliyi yazır: "Qarabağ münaqişəsinin həllinə nail olunmasında həm Rusiyanın, həm də Türkiyənin rolunu çox qiymətləndirmək çətindir. Mütəxəssisləri atəşkəs rejiminə riayət olunmasına nəzarət edən və münaqişələrin qarşısının alınması ilə məşğul olan Rusiya-Türkiyə monitorinq mərkəzi açılıb. Onların təhlükəsizliyini də öz növbəsində Azərbaycan qoşunları təmin edir. Bu, üç ölkə - Rusiya, Türkiyə və Azərbaycan arasında mükəmməl qarşılıqlı fəaliyyətdən xəbər verir. Ekspertlərin uzun illərdir danışdıqları, araşdırılan Rusiya-Türkiyə-Azərbaycan oxunun necə reallığa çevrildiyini görürük. Fikrimcə, Rusiya-Türkiyə birgə monitorinq mərkəzinin işinin nümunəsinə əsaslanaraq, Moskva və Ankara gələcəkdə maraqlarının toqquşduğu digər regionlarda da oxşar qarşılıqlı fəaliyyət üçün alqoritm yarada bilərlər. Biz Liviya və Suriyada müəyyən münaqişələr barədə tez-tez eşitmişik, lakin Rusiya və Türkiyə yenə də danışıqlar aparıb bütün məsələləri həll edə bilib. Hesab edirəm ki, belə birgə mərkəzlər yaradılarsa, bütün məsələlər daha tez həllini tapacaq" [24].

Rusiyanın bölgə ilə əlaqədar əsas məqsədi Gürcüstanın daxili işlərinə qarışmaqla xüsusi ilə ərazisindəki münaqişələrə dəstək verməkle ölkənin xarici siyasətinə də nəzarət etməyə çalışmaqdı. Çünki Türkiyə və Qərbin nüfuz etməsi Rusiyanın Cənubi Qafqaz siyasəti üçün narahatçılıq yaradırdı ki, burada da əsas açar rolunu Gürcüstan olurdu. Buna da səbəb Xəzər hövzəsi enerji resurslarının keçəcəyi marşurutun bu ərazidən keçməsi Gürcüstanı bölgə siyasətində aktual edir. Başqa bir tərəfdən Rusiya Gürcüstan ərazisi olan Abxaziyadakı Qara dəniz sahilində yerləşən Novarossiyski və Tuapse limanlarına nəzarət etməklə, Poti, Supsa və Batumi limanlarına da yaxınlaşması demək idi. 1995- ci ilin avqustunda Rusiya Gürcüstan ərazisində dörd hərbi bazasını yerləşdirməklə əslində buna nail olmuşdu. Rusiya Gürcüstandakı ərazi və etnik mənşəli münaqişələri dəstəkləməklə Azərbaycan və Qazaxıstan neftinin Gürcüstandan keçərək Türkiyəyə Qərb marşurutu [7, s. 5] ilə getməsinə nəzarət etmək istəyindən irəli gəlirdi. Məhz bu səbəbdəndir ki, regionda keçən əsrin sonlarında böyük dövlətlər arasında gedən oyunun ilk qurbanı Gürcüstanın ilk prezdenti olan Z.Qamsaxurdiya olmuşdur. Rusiyanın dəstəklədiyi E.Şvarnadzede hakimiyyətə gələndən sonra da Tibilisi öz siyasətini dəyişməyərək Qərbə inteqrasiyanı üstünlük verdi. Rusiya çalışırdı ki, bölgədəki enerji xətləri Supsa limanından keçsin. Çünki Supsa limanı Rusiyanın nəzarətində idi. E.Şvarnadze buna etiraz etməsi 1995-ci ilin avqustunda avtomabil qəzasında yaralanması ilə nəticələndi.

Rusiya, Azərbaycan və Türkiyə dövlətlərin hər birini qarşılıqlı fəaliyyətə, yaranmış problemi həll etməyə sövq edən addımlar atıb. Azərbaycan son illər öz mövqelərini Rusiyaya çatdıra bildi. Azərbaycan regionda sülhün tərəfdarı olduğunu diplomatik gedişi ilə bildirdi. 44 günlük Vətən Müharribəsi ilə Azərbaycan regiondakı etnik mənşəli və ərazi münaqişlərini tezliklə region dövlətlərinin ərazi bütövlüyü daxilində həllinin mümkün olduğunu nəinki Rusiya elitasına, hətta dünyanın böyük dövlətlərinə çatdıra bildi. Rusiya, Azərbaycan və Ermənistan arasındakı münaqişəni nizamlanmasında iştirak etməklə öz ətrafında pantürkist məkan yaratmağa çalışan Türkiyənin olması ilə bağlı əbədi qorxuların olmayacağının əsas təminatıdır. Bunun qarşısını almaq üçün Rusiya Qarabağla bağlı prosesdə fəal iştirak etməyə borclu idi. Rusiya və Türkiyənin münaqişənin nizamlanması ilə bağlı qarşılıqlı fəaliyyətini qiymətləndirərkən belə bir formatın formalaşmasının hansı fonda baş verdiyini anlamaq vacibdir. Rusiyanın Qərblə son dərəcə gərgin münasibətləri onun 44 günlük müharibə sonrası regionda öz geosiyasi mövqelərini möhkəmləndirməyə məcbur edirdi. İstər Moskva, istərsə də Ankara regionda hər hansı siyasi addımı atarkən “Amerika faktorunu” nəzərə almalıdırlar. Lakin Ukraynaya Rusiyanın hücumu rəsmi Vaşiqtonun hələ ki Cənubi Qafqaz siyasətini birqədər ləngitdi. Cənubi Qafqazda Rusiya-Türkiyə əməkdaşlığı asan olmayacaq, lakin hər iki ölkənin bu yolda öz milli vəzifələrini bir-birinə qarışmadan, əksinə, qarşılıqlı fəaliyyəti gücləndirməklə ustalıqla həll etmək imkanı var.

Ankaranın uğurlu diplomatik gedişi onun Cənubi Qafqazda tərəfdaşı Azərbaycan və Gürcüstan üçün hərbi qələbə qazana bilən güclü oyunçu kimi imicini artırdı. Eyni zamanda, Kreml sülh müqaviləsinin Rusiyanın iştirakı ilə olsa da Türkiyənin regionda sülh və sabitlik üçün əsas maneələrdən biri olan münaqişənin nizamlanmasında rolu danılmazdır. Lakin buna baxmayaraq, regionda vəziyyət hələ də çox kövrəkdir. Rusiya sülhməramlılarının sürətlə gəlişinə baxmayaraq, sazişin bəzi əsas aspektləri, o cümlədən Ermənistan qoşunlarının Dağlıq Qarabağdan çıxarılması hələ də həyata keçirilməyib. Noyabrın 10-da Moskvanın möhürlədiyi sazişdəki saat bombası ondan ibarətdir ki, bu sənəddə “Dağlıq Qarabağın” gələcək statusundan bəhs edilmir. Beş ildən sonra Bakının Rusiya sülhməramlı qoşunlarının öz ərazisindən çıxarılmasını tələb etmək üçün hüquqi əsasları olacaq və Qarabağa hərbi güclə tam nəzarəti bərpa edə biləcək. Bunun baş verməsi isə Kreml üçün xoşagəlməz dilemma yaradacaqdı. Rusiyanın geri çəkilməsi ehtimal ki, Azərbaycanın region geosiyasətində uğuru deməkdi. Rusiya sülhməramlılarının qalması isə onların Azərbaycanla əlaqələrinə xələl gətirəcək və çoxlu beynəlxalq tənqidlərə səbəb olacaqdı. Ona görə də Rusiya çox güman ki, bu dar fürsət pəncərəsindən istifadə edərək diplomatiya yolu ilə regionda qalmasını saxlayacaqdır. Hələlik missiyanın qeyri-mümkün olduğu görünür. Döyüş meydanında əhəmiyyətli təsir rıçaqları əldə edən Bakı danışıqlarda mövqeyini yaxşılaşdırıb və çətin ki, “Dağlıq Qarabağ” üçün çoxlu muxtariyyət qəbul etsin. Eyni zamanda, erməni cəmiyyəti hətta ilkin emosional sarsıntı aradan qalxdıqdan sonra da çətin ki, daha çevikləşsin və İrəvan acınacaqlı reallıqla üzləşməyə məcburdur. Rusiyanın ABŞ ilə əlaqələri pozulduqda, kompromis tapmaq üçün beynəlxalq diplomatik səylərin gözləniləcəyini təsəvvür etmək çətindir. Xüsusən də Rusiyanın Ukraynaya hücumu ABŞ və Aİ ilə münasibətlərin pik həttinə çatdırdı ki, Cənubi Qafqaz regionunda da çox təhlükəli vəziyyətə salır və qarşıda çoxlu risklər var

Cənubi Qafqaz Türkiyənin siyasi, iqtisadi və mədəni əlaqələri ilə təsirini artıra biləcəyi yeni bir ərazidir. Belə şəraitdə Mərkəzi Asiyada baş verən hadisələr Qafqazdakı beynəlxalq vəziyyətdən asılı olaraq dəyişməkdədir. XIX əsrdə başlayan “Böyük Oyun” ideyasına sonralar Qafqaz bölgəsi də aid edilmiş və iki imperiya arasında tarixən gedən bu oyun sonralar bölgə xalqları arasında gərginliyi yol açmışdır. Keçən əsrin sonlarında bölgədə siyasi maraqları olan ABŞ və Aİ tarixən bölgə ilə siyasi və qohumluq əlaqələri olan Türkiyədən istifadə etməyə çalışırdılar. Onların əsas istəyi Sİ - nın varisi olan Rusiyanın bölgədəki təzyiqlərini azaltmaq və Xəzər enerji resurslarını sərbəst və təhlükəsiz Qərb bazarlarına daşımaq idi. Əsas məqsədlərdən biri Rusiyaya alternativ “cənub enerji dəhlizini” qurmaq idi ki, xüsusən Rusiyada V.Putinin iqtidara gəlməsindən sonra bu məsələ problem olmuşdur. Ankaranı Moskva ilə qarşılaşdırmağa çalışan Qərb dövlətləri müəyyən

dərəcədə buna nail olsalar da, bölgədə sonbaş verən hadisələr xüsusən, Ermənistan - Azərbaycan arasındakı 44 günlük müharibədən sonra bölgədə sülhü və sabitliyi yaratmaq məqsədi ilə Türkiyə - Rusiya əməkdaşlığı Qərbin planını puç eledi. Başqa bir tərəfdən bölgə ilə siyasi, iqtisadi və mədəni əlaqələdə olan Türkiyə bu məqsədlərini həyata keçirmək üçün bəzi həllini gözləyən məsələlər vardır ki, tezliklə həll olunmalıdır. Lakin regiondakı geosiyasi vəziyyət və böyük dövlətlərin maraqları bu məsələlərin xüsusi ilə "dondurulmuş" ərazi münaqişələrinin həllini gələcək zamanlarda həllini görsətmir. Lakin Türkiyə regionda bu problemlərin çoxunu həll edə bilməsə də, bəzi məsələlərin həllində köməkçi ola bilər. Türkiyə bölgədə öz mənfəəti üçün sülh və sabitliyi qorumaq məqsədi ilə

- regionun aparıcı dövlətlərindən olan Gürcüstan və Azərbaycanla yüksək səviyyədə münasibətlər qurub və özünü regionda hər iki dövlər üçün etbarlı müttəfiqi olmalı;
- Azərbaycan və Gürcüstanın xarici siyasətində region qonşuları ilə problemlərinin həllinə kömək etmək və ona hər sahədə dəstək olmalıdı;
- Cənubi Qafqazda sülh bərqərar olduqdan sonra bu ölkələrlə müdafiə yönümlü təhlükəsizlik əlaqələri qurmalı;
- İqtisadi sistem mübadiləsi və əməkdaşlığının həyata keçirilməsinin bütün aspektlərində kömək etmək və hər cür özəl təşəbbüsləri təşviq etməli;
- Türkiyə, region ilə mədəniyyət, iqtisadiyyat və sosial baxımdan yaxınlaşmasına şərait yaratmaqla İranın Rusiyanın dini və iqtisadi təsiri altına düşməsinin qarşısını almalı.

**Nəticə**

İkinci Dünya Müharibəsindən sonrakı xarici və təhlükəsizlik stratejisini Sİ – ın təcavüzkarlıq mövqeyini dəfn edilməsi və öz siyasətini Qərbə inteqrasiya fonunda quran Türkiyə, Soyuq müharibənin qurtarması ilə SSRİ- nin dağılmasını xoş görmüşdür. Lakin NATO üzvü olan bir dövlətin həmin dönəmdə Cənubi Qafqaz və Orta Asiyada gedən siyasi proseslərə müdaxilə etməsi mümkün deyildi. Şərqi Avropada liberal demokratiyaların yaranması Qərbi Avropa ilə Rusiya arasında bufer zona yaratsa da, Türkiyə hələ də yaxın qonşuluğu ilə bağlı davam edən qeyri-müəyyənliklərə görə təhlükə hiss etməkdədir. Ermənistan, Rusiyanın Cənubi Qafqazda yeganə müttəfiqidir (Gürcüstan ABŞ-ın təsir dairəsindədir, Azərbaycan isə Rusiya ilə bütün iqtisadi və insani əlaqələrilə Türkiyənin Avrasiya layihəsinin bir hissəsidir). Ermənistan, Rusiyanın təsir dairəsini tərk etdikdən sonra Cənubi Qafqaz nəhəng Türkiyə-Qərb qurşağına çevriləcəkdir. Türkiyə isə Rusiyanı Yaxın Şərqdə qaşısını kəsəcək, həm də Cənubi Qafqaz bölgəsindəki siyasi vəziyyəti və sabitliyi pozmağa çalışan bütün qüvvələr üçün maneə olacaqdır. Bölgədə böyük güclər arasında gedən Böyük Oyunda Türkiyə hələ ki, tamaşaçı kimi iştirak edir. ABŞ-ın cəhdləri qısa müddətdə özünə zərər verəcək nöqtədədir. Bu kontekstdə Azərbaycan xüsusilə 44 günlük müharibədən sonrakı vəziyyətin böyük əhəmiyyəti var. Azərbaycandakı hər hansı bir gərginliyin Türkiyəyə əks-səda verə biləcəyi ehtimalı ilə yanaşı, həm də dəstəklədiyi və verdiyi məsuliyyətdən irəli gələn bir hiss vardır.

Türkiyə, Cənubi Qafqazın ən çox Qərb pərəstliyi ilə seçilən dövləti Gürcüstan siyasi əlaqələrində ehtiyatlı olmalıdır. Belə ki, Tiflisin Qərbə doğru yönəlməsi xüsusən, rəngli inqilabdan sonra M.Saakaşvilinin hakimiyyətə gəlməsi Gürcüstanda antirus meyillərinin artması Türkiyənin əsas ticarət tərəfdaşı olan Rusiya ilə bölgədə daha həssas davranması ilə nəticələndi. Başqa bir tərəfdən Türkiyənin enerji idxalatçısından ixracatçısına çevrilməsinə imkan yaradan Xəzər dənizi enerji resurslarının təhlükəsiz Gürcüstan üzərindən Qərb bazarlarına nəqli Ankara və Tibilisinin ümümi maraqlarıdır. Gürcüstan, Türkiyənin xarici siyasətinin mühüm ekspansiyalarından birinə çevrilən Cənubi Qafqaz və Orta Asiyanın təhlükəsizliyi, Türkiyənin bölgəyə çıxışı üçün qısa müddətdə regional geosiyasətini həyata keçirmək üçün ən mühüm bölgə ölkəsidir. Türkiyənin bölgədə Rusiya və Qərb təsirini uzaqlaşdırmaqla bəzi hədəflərə çatmaq niyyətindədir:

- Türkiyə bölgədə təhlükəsizliyi təmin etməklə əsas ticarət tərəfdaşı olan Rusiya ilə nəqliyyat marşrutları üçün rahat keçid zonası yaratmaq;
- Bu bölgəni Rusiya ekspansionizminin dirçəlməsi ehtimalına qarşı bufer zonasına çevirmək:
- Türkiyə iqtisadiyyatını gücləndirmək üçün qarşılıqlı maraq prinsipini qorumaq şərti ilə bölgənin iqtisadi potensialından faydalanmaq:

Beləliklə, aparılan tədqiqatın nəticəsində Rusiya və Türkiyənin Cənubi Qafqazda uzunmüddətli siyasi rəqabətinə baxmayaraq, Moskva indi bölgədə Ankara ilə əməkdaşlığa daha açıqdır. Rusiyanın gözləntilərini yerinə yetirməməsi nəticəsində Gürcüstan üzünü Rusiyadan Qərbə və ABŞ-a çevirdi. Bu vəziyyət həm də Gürcüstan və Türkiyə arasında ikitərəfli münasibətlərin inkişafında dönüş nöqtəsi oldu. Gürcüstan ölkə daxilindəki etnik mənşəli və ərazi münaqişələrini Rusiya ilə deyil, ABŞ və beynəlxalq təşkilatlar NATO və BMT vasitəsilə həll etməyə meyllidir. Bu səbəbdən ilk növbədə ABŞ və NATO-nun ən yaxşı müttəfiqi olan sərhəd qonşusu Türkiyə ilə münasibətlər yaxşı səviyyədə olmalıdır. Bundan başqa, Gürcüstanın NATO-ya daxil olması üçün həyata keçirdiyi hər cür fəaliyyətə ən çox dəstək verən ölkə Türkiyədir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Arı T. Orta Asya ve Kafkasya. “Rekabetten İşbirliğine” MKM Yayıncılık 2010, Bursa. s. 107-108
2. Aslanlı Aras. QLOBAL SİYASƏTDƏ QAFQAZ: 22 İL ƏVVƏL VƏ İNDİ. 20.05.2013 http://www.qafsam.org/page/469/az
3. Aydın M. Turkish Policy Toward the Caucasus. *The Quarterly Journal*. No.3, 02 September
4. Aydın M. Büyük Oyun'dan Öz Büyük Oyun'a Avrasya'da Demokrasi ve Güç Mücadelesi 08 Eylül 2005 http://www.mustafaaydin.gen.tr/c/443/buyuk-oyundan-oz-buyuk-oyuna-avrasyada-demokrasi-ve-guc-mucadelesi
5. Alakbarov R. Türkiyenin Kafkasya politikası. https://www.academia.edu/9058972/T%C3%BCrkiyenin_Kafkasya_politikas%C4%B1
6. Bahadır T. Amerika Birleşik Devletleri, Orta Asya ve “Yeni Büyük Oyun”. *Elektronik Siyaset Bilimi Araştırmaları Dergisi.* Ocak 2014 Cilt: 5 Sayı:1 s 16. ss 15-28
7. B. Napolyon'un 10 Kasım 1804'te Prusya Kralı'na yazdığı mektuplarda. Correspendance de Napoleon (Paris 1862) X60, NO 8170 Esra Diri. Uluslararası İlişkiler Kütüphanesi.s 3 ss 3-41
8. Cənubi Qafqazın geosiyasi mənzərəsi: mürəkkəblik və risklər fonunda. 29.03.2019. Bakı, 29 mart. AZƏRTAC. https://azertag.az/xeber/Cenubi_Qafqazin_geosiyasi_menzeresi_murekkeblik_ve_riskler_fonunda-1263163
9. Cohen A. The New Game: Oil Politics in the Caucasus and Central Asia. The Thomas A. *Roe Institute of Economic Policy Studies.* 1996. p 5
10. İbrahimov A, Mutluer M. Güney Kafkasya’ da Türkiye- Rusya etkileşimi. *Soğuk Savaş sonrası sosyal, ekonomik ve siyasal gelişmeler bağlamında Güney Kafkasya.* İzmir Iksad Publications – 2021 s 7
11. Igolkin, A., 2004. Early Lessons of Mutually Beneficial Cooperation, Oil of Russia. Oil of Russia. Available at: <http://www.oilru.com/or/17/230/> .
12. Искусство компромисса. Как Россия и Турция формируют новую реальность на Южном Кавказе Нана Хоштария "Москва-Баку" 04.02.2021 https://moscow-baku.ru/news/politics/kak_rossiya_i_turtsiya_formiruyut_novuyu_realnost_na_yuzhnom_kavkaze/
13. Karadeniz Ekonomik İşbirliği ve Türkiye, Harp Akademileri Komutanlığı, İstanbul, Harp Akademileri Basımevi, 1995, s. 2.
14. Kiçik dövlətlərin müdafiə strategiyasının müqayisəli təhlili: gürcüstan və ermənistanın nümunəsində
15. Коppiters B. Грузия в Европе. Идея периферии в международных отношениях - http://poli.vub.ac.be/publi/etni-3/coppieters1.htm
16. Larenkov A. «Большая игра» в Каспийском регионе. Главным инструментом влияния России в соседних государствах должна стать «мягкая сила»19 декабря 2017 https://svpressa.ru/blogs/article/188970/
17. Markedonov S. “NATO Looks to the Caucasus,” National Interest, 17 May 2012, https://nationalinterest.org/commentary/nato-looks-the-caucasus-6933.
18. Memmedov, A. Güney Kafkasya'da Etnik Çeşitlilik ve Çatışma. Yayımlanmamış Ankara Üniversitesi 2002 Ankara. 73-74
19. Mirzəyev İ. «Большая игра» на Южном Кавказе. \\ Журнал «Свободная мысль-XXI» 25 iyul 2005

20. Ruseckas L. “State of the Field Report: Energy and Politics in Central Asia and the Caucasus.” *Access Asia Review*, 1998.s. 21

21. Süleymanov E. Filip Černý. The Southern Caucasus Pipelines and the Caspian “Oil Diplomacy” *The issue of transporting Caspian oil and natural gas to world markets.* RIPS, Vol. 11, núm. 4, 2012, 77-105. p 80-81

22. Sancak, K., Gürcistan‟ın Kafkasya‟daki Yeri, Marmara Üniversitesi Ortadoğu ve İslam Ülkeleri Enstitüsü Yayımlanmamış 2000, s. 18.

23. Şükürova Ü. Qafqazda başlayan yeni “böyük oyun”. 23 Noyabr 2021. https://hurriyyet.az/az/post/qafqazda-baslayan-yeni-boyuk-oyun-352643

24. The South Caucasus: a challenge for the EU, Chaillot Papers n°65, December 2003, EU Institute for Security Studies, Paris, p. 164-168

25. Torbakov I. Turkey-Russia: Competition and Cooperation. 27 December 2002. https://eurasianet.org/turkey-russia-competition-and-cooperation

26. Uludağ, B. (1999). Sovyetler Birliği ve Sonrası Dönemde Kafkasya'daki Ulusçu Ayrılıkçı Akımlar. Yayınlanmamış Doktora Tezi, Ankara Üniversitesi, Ankara. 601-602

27. Young M. In an interview, Alexander Gabuev discusses the Nagorno-Karabakh conflict and identifies winners and losers. November 12, 2020. https://carnegie-mec.org/diwan/83207

28. Voskanyan A. О комплементаризме и возможных моделях европейской интеграции стран Южного Кавказа - http://scirs.org.ge/russian/analytic/round_three/voskanyan.htm.

**Мурад Ельчин оглы АСАДОВ**
Диссертант кафедры дипломатии и современных интеграционных процессов
Бакинского Государственного Университета

## ГРУЗИЯ, ЗОНА КОНФЛИКТА И СОТРУДНИЧЕСТВА В «НОВОЙ БОЛЬШОЙ ИГРЕ» В КОНКУРЕНЦИИ МЕЖДУ ТУРЦИЕЙ И РОССИЕЙ

**Резюме:** Вхождение Грузии в повестку дня международных отношений можно оценивать с разных сторон. Чтобы правильно понять нынешнее положение Грузии, в первую очередь необходимо оценить информацию о ее геополитике, геокультуре и геоэкономике. В данном исследовании анализируется политическая ситуация в регионе Южного Кавказа в начале XXI века, процесс двусторонней и многосторонней интеграции и условия, необходимые для ее реализации, место и значение региона в «Новой большой игре» больших стран. В статье также рассматриваются сложные вопросы на Южном Кавказе, турецко-российское соперничество перед лицом многообещающего потенциала, а также место и значение этого соперничества в их региональной политике. Проанализировано влияние результатов войны между Азербайджаном и Арменией на турецко-российскую региональную политику. Помимо глобальных факторов, статья призвана объяснить динамику и развитие региона, а также серьезную конкуренцию между странами региона.

**Ключевые слова:** *Южный Кавказ, Турция, Грузия, «Новая большая игра», геополитика.*

**Murad Elchin ASADOV**
Ph D studient of the Department of Diplomacy and
Modern Integration of Baku State University

## "NEW GREAT GAME" CONFLİCT AND COOPERATİON AREA GEORGİA: TURKEY AND RUSSİA İN COMPETİTİON

**Abstract:** Georgia's inclusion in the agenda of international relations can be assessed from various angles. In order to properly understand the current situation of Georgia, first of all, it is necessary to evaluate the information about its knowledge of geopolitics, geoculture and geoeconomics. This study analyzes the political situation in the South Caucasus at the beginning of the XXI century, process of bilateral and multilateral integration of the region's states and conditions necessary for the implementation of this process, place and importance of the region in the "New Great Game". The article also examines complex issues in the South Caucasus, Turkish-Russian rivalry in the face of promising potential, place and significance of this rivalry in their regional politics. The results of the Azerbaijani-Armenian war were analyzed in the regional policy of Turkey and Russia. In addition to global factors, the article aims to explain the dynamics and development of the region, as well as serious competition between the countries of the region.
**Key words:** *South Caucasus, Turkey, Georgia, "New big game", geopolitics*

**Daxil olub:** 09.08.2022